**“Xalqkart Cashback” Bank kartı məhsulu çərçivəsində xüsusi kart hesabının açılması, bank kartının istifadəyə verilməsi və digər xidmətlərin təqdim edilməsi haqqında**

**Müqaviləyə dəyişikliklər**

Bankın partnyor olmayan Ticarət-xidmət müəssisələrində bir MCC kodlar qrupu çərçivəsində aparılmış Nağdsız əməliyyatlar üzrə Cashback məbləğinin aylıq limitinin müəyyən olunması və Kartla hesablaşmalar zamanı Cashback hesablanması nəzərdə tutulmayan əməliyyatların Siyahısının yenilənməsi və digər məsələlər ilə əlaqədar olaraq “Xalqkart Cashback” Bank kartı məhsulu çərçivəsində xüsusi kart hesabının açılması, bank kartının istifadəyə verilməsi və digər xidmətlərin təqdim edilməsi haqqında Müqaviləyə/Müqavilənin:

a) aşağıdakı məzmunda 1.5-ci bənd əlavə edilsin, 4.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

- **«1.5.** MCC kodlar qrupu – oxşar fəaliyyət növləri (məsələn, geyim satışı, market alış-verişi, təmizlik xidmətləri, turizm və istirahət xidmətləri və s.) üzrə bu Müqavilənin məqsədləri üçün bir qrupa birləşdirilmiş müvafiq MCC kodlar. Bank Nağdsız əməliyyatların aparılmasına görə Cashback hesablanması nəzərdə tutulan MCC kodlar qruplarını müstəqil şəkildə müəyyən edir. Kart saxlayıcısının tanış olması üçün Cashback hesablanması nəzərdə tutulan MCC kodlar qruplarının siyahısı Bankın www.xalqbank.az web-saytında yerləşdirilir;**»;**

- **«4.3.** Kart saxlayıcısına GBP valyutasında XKH açıldıqda Bankın kassası vasitəsilə, habelə Banka məxsus bankomat və POS-terminal şəbəkələrində GBP valyutasında XKH-ya/XKH-dan nağd vəsaitlərin mədaxil/məxaric edilməsi üzrə əməliyyatların aparılmasına icazə verilmir.

  Bankın kassası vasitəsilə, habelə Banka məxsus bankomatlarda GBP valyutasında olan XKH-ya/XKH-dan pul vəsaitlərinin nağd qaydada mədaxil/məxaric edilməsi AZN, USD və EUR valyutalarının GBP valyutasına əməliyyatın keçirildiyi günə Bankın müəyyən etdiyi məzənnəsi ilə həmin valyutalardan biri ilə həyata keçirilir. Banka məxsus bankomatlarda GBP valyutasında olan XKH-ya/XKH-dan pul vəsaitlərinin USD və/və ya EUR valyutalarında nağd qaydada mədaxil (bankomat bu funksiyanı dəstəklədikdə) / məxaric edilməsi imkanı Bank tərəfindən müvafiq bankomat(lar) vasitəsilə Kart saxlayıcılarına həmin valyutalarda nağd əməliyyatlarının aparılması üzrə xidmətlərin göstərilib-göstərilməməsindən asılıdır.**»;**

b) 5 №-li Əlavəsinin 1.4-cü bəndinin birinci cümləsi, 1.5.2-ci yarımbəndi və 1.6-cı bəndin birinci və ikinci abzasları, 3.1-ci və 3.2-ci bəndləri, 5 №-li Əlavəsinin 1 №-li Əlavəsi müvafiq olaraq aşağıdakı redaksiyalarda verilsin:

- **«1.4.** Cashback hesablanması zamanı Bankın partnyor olmayan Ticarət-xidmət müəssisələrində bu Əlavənin 1.5.2-ci yarımbəndi ilə bir MCC kodlar qrupu çərçivəsində aparılmış Nağdsız əməliyyatlar üzrə müəyyən olunmuş Cashback məbləğinin aylıq limitlərinə riayət olunmaqla, cari Hesabat dövründə XKH-da əks olunmuş Nağdsız əməliyyatlar, yəni XKH-dan faktiki silinmiş pul vəsaitlərinin məbləği nəzərə alınır. Bu zaman Nağdsız əməliyyatların hesablanmış məbləğləri əvvəllər Bank kartından istifadə etməklə ödənilmiş malın Ticarət-xidmət müəssisəsinə qaytarılması əməliyyatlarının (reverse əməliyyatları) məbləğləri qədər azaldılır.**»;**

«1.5.2. **Bankın partnyor olmayan Ticarət-xidmət müəssisələrində -** Kartdan istifadə etməklə aparılan hər Nağdsız əməliyyat məbləğinin 2 (iki) faizi miqdarında, lakin hər bir halda bir MCC kodlar qrupu çərçivəsində aparılmış Nağdsız əməliyyatlar üzrə aylıq 30 (otuz) AZN və ya 15 (on beş) USD/EUR/GBP məbləğindən (bundan sonra – aylıq limit) çox olmamaq şərtilə.**»;**

- «1.6. Bank tərəfindən Kart saxlayıcısının XKH-sına köçürülən Cashback məbləği Bankın partnyor olmayan Ticarət-xidmət müəssisələrində bu Əlavənin 1.5.2-ci yarımbəndi ilə bir MCC kodlar qrupu çərçivəsində aparılmış Nağdsız əməliyyatlar üzrə müəyyən edilmiş aylıq limit nəzərə alınmaqla, bu Əlavənin 1.5-ci bəndində nəzərdə tutulmuş müvafiq Mükafatlandırma dərəcəsinin Hesabat dövrü ərzində aparılmış və Bank tərəfindən bu Əlavənin 1.4-cü bəndinə müvafiq olaraq müəyyən edilmiş Nağdsız əməliyyatların ümumi məbləğinə vurulması nəticəsində hesablanır. Hesablamanın nəticəsi vergüldən sonra ikinci rəqəmə qədər yuvarlaqlaşdırılır.

  Bu zaman bir Hesabat dövrü üzrə Kart saxlayıcısının XKH-sına köçürülə biləcək Cashback-in: (i) minimal məbləği həmin XKH-nın valyutasından asılı olaraq 3 (üç) AZN və ya 2 (iki) USD/EUR/GBP; (ii) maksimal məbləği isə Bankın partnyor olmayan Ticarət-xidmət müəssisələrində bu Əlavənin 1.5.2-ci yarımbəndi ilə bir MCC kodlar qrupu çərçivəsində aparılmış Nağdsız əməliyyatlara münasibətdə müəyyən edilmiş aylıq limitdən çox olmamaq şərtilə, həmin XKH- nın valyutasından asılı olaraq 300 (üç yüz) AZN və ya 150 (yüz əlli) USD/EUR/GBP təşkil edir.**»;**

- «**3.1.** Bankın partnyor və partnyor olmayan Ticarət-xidmət müəssisələrində aparılan Nağdsız əməliyyatlara görə Cashback hesablanması üçün Mükafatlandırma dərəcələrinə, bir Hesabat dövrü üçün Kart saxlayıcısının XKH-sına mədaxil edilə biləcək Cashback-in maksimal və minimal məbləğlərinə, Bankın partnyor Ticarət-xidmət müəssisələrinin siyahısına, MCC kodlar qruplarının siyahısına, Cashback hesablanmasının, təqdim edilməsinin, silinməsinin bu Əlavə və Bankın Tarifləri ilə nəzərdə tutulmuş digər şərtlərinə Bank tərəfindən birtərəfli qaydada dəyişikliklər və/və ya əlavələr edilə bilər.**»;**

- «**3.2.** Bank tərəfindən bu Əlavəyə, habelə MCC kodlar qruplarının Siyahısına dəyişikliklərin və/və ya əlavələrin edilməsi Müqavilənin 3.2.7-ci yarımbəndində nəzərdə tutulmuş qaydada həyata keçirilir. Kart saxlayıcısı bu dəyişiklik və əlavələrlə Bankın www.xalqbank.az web-saytında tanış ola bilər.**»;**

**Əlavə № 1**

**Kartla hesablaşmalar zamanı Cashback hesablanması nəzərdə tutulmayan əməliyyatların Siyahısı**

| MCC kod | MCC kodlarının açılışı |
|---|---|
| 1100 | ASAN Xidmət |
| 4011 | Dəmir yolları - yüklərin daşınması |
| 4111 | Sərnişin daşınması - şəhərətrafı və yerli nəqliyyat xidmətləri |
| 4112 | Dəmir yolları - sərnişinlərin daşınmaları |
| 4121 | Limuzinlər və taksilər |
| 4131 | Avtobus xətləri |
| 4814 | Telekommunikasiya xidmətləri |
| 4816 | Kompüter şəbəkələri, məlumat xidmətləri |
| 4829 | Pul köçürmələri |
| 4899 | Kabel və digər ödənişli TV xidmətləri |
| 4900 | Mənzil-kommunal xidmətləri |
| 5999* | MCC kodu heç birinə uyğun gəlməyən, unikal və ya xüsusi əşyalar satan pərakəndə satış məntəqələri |
| 6010 | Pos-terminal vasitəsilə bankların kassalarından nağd pulun çıxarılması |
| 6011 | Bankomatlar vasitəsilə nağd pulun çıxarılması |
| 6012 | Kredit ödənişi, hesaba mədaxil əməliyyatları |
| 6050 | Maliyyə insitutlarında aparılan əməliyyatlar |
| 6051 | E-cüzdan balans artırma və digər maliyyə xidmətləri |
| 6211 | Qiymətli kağızlar bazarında broker xidmətləri |
| 6300 | Sığorta təşkilatlarının xidmətləri |
| 6532 | Ödəniş əməliyyatı - maliyyə institutları |
| 6535 | Qiymətlilərin tələb edilməsi haqları - Maliyyə təşkilatları |
| 6536 | Kartdan karta pul köçürmələri |
| 7995 | Mərc oyunlarına pul qoyuluşu, lotereya biletləri, kazino, Off-Track totalizatorlar və yarış totalizatorları |
| 9211 | Uşaq dəstəyi, aliment ödənişi daxil olmaqla qanuni ödənişlər |
| 9222 | Cərimələr |
| 9311 | Vergi ödənişləri |
| 9399 | Hökumət ödənişləri - təsnifləşdirilməyən |
| 6381 | Sığorta haqları |
| 6399 | Sığorta - təsnifləşdirilməyən |
| 7321 | Kredit bürosu |
| 9223 | Girov və istiqrazlar üzrə ödəmələr |
| 6540 | Bank olmayan təşkilatlara tərəfindən emissiya edilmiş əvvəlcədən ödənilmiş kartlarının balans artırılması xidməti |
| 9401 | I-Purchasing Pilot (Sınaq məqsədli əməliyyatlar – yalnız Mastercard üçün) |

* Ölkədaxili ödənişlər

2. Bu dəyişikliklər 18.03.2024-cü il tarixindən etibarən qüvvəyə minir.